# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# VƏ

# MOLDOVA ELMLƏR AKADEMİYASI ARASINDA ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ HAQQINDA

## S A Z İ Ş

Azərbaycan Milli Elmlər Akademiyası və Moldova Elmlər Akademiyası (bundan sonra “Tərəflər” adlandırılacaq) aşağıdakılar barədə razılığa gəldilər:

### 1. Sazişin predmeti

Bu Sazişin predmeti Azərbaycan Respublikası və Moldova Respublikası arasında birgə elmi tədqiqatlar üzrə əməkdaşlıq prosesinin möhkəmləndirilməsidir. Tərəflər bərabərlik və qarşılıqlı maraqlar çərçivəsində, hər iki tərəfin birgə maraq göstərdiyi elmi-tədqiqat sahələri ilə bağlı əməkdaşlığı dəstəkləyəcək və inkişaf etdirəcək.

### 2. Əməkdaşlıq formaları və onun reallaşdırılması

1. Bu müqavilə çərçivəsində qarşılıqlı razılaşdırılmaqla, birgə seminarlar, simpoziumlar, konfranslar, vasitəçilik tədbirlərinin də daxil olduğu tədqiqat layihələrinin elan olunması nəzərdə tutulur.

2.Tərəflər innovasiya fəaliyyəti üzrə qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək barədə aşağıdakılar üzrə razılığa gəldilər: innovasiya infrastrukturunun və texnologiyaların ötürülməsi üzrə layihələrin hazırlanması və reallaşdırılması, innovasiya sahəsində konsorsiumun yaradılması, tədqiqat və innovasiya sahəsində Avropa İttifaqı proqramlarının inkişaf etdirilməsi üzrə tərəfdaşlıq.

3. Əməkdaşlığın hər bir forması üçün müştərək proqramlar və ətraflı məlumatları Tərəflər müəyyən etməlidir.Tərəflər tərəfdaşlıq proqramını ən azı iki ildən bir nəzərdən keçirməlidir. Onun tərkibinə aşağıdakı müddəalar daxil olmalıdır: başlıq, təsvir, maliyyə tədbirləri və birgə elmi-tədqiqi layihələrinin, seminarların və Tərəflərin seçdiyi digər təşəbbüslərin müddəti, həmçinin alimlərin və iştirakçıların adları.

## 3. Xərclər

Hər bir Tərəf öz ölkəsinin iştirakçı- tədqiqatçısının xərclərini qarşılayır. Dəstəklənmiş layihələrin, seminarların və istənilən digər müştərək fəaliyyətlərin sayı, yenilənmiş Müştərək proqramda 2 il müəyyən edilməklə , hər il Tərəflərin hər birinin büdcəsindən maliyyələşmənin olub-olmamasından asılı olacaqdır.

## 4. Qaydalara riayət edilməsi

İştirakçı tədqiqatçı qəbul edən ölkənin qanunlarına və qəbul edən müəssisənin qaydalarına riayət etməlidir.

## 5. Əqli mülkiyyət

Əqli mülkiyyət tədqiqatçıya və ya elmi-tədqiqat müəssisəsinə məxsusdur. Tərəflərin dəstək bəyannaməsi olduğu halda, elmi işlərin nəticəsi istənilən nəşrə təqdim edilməlidir.

## 6. Digər məsələlər

Bu Sazişdə öz əksini tapmamış inzibati prosedurlar və tətbiqi barədə ətraflı məlumatlar ayrıca olaraq müştərək proqramda təqdim edilə və ya yazışma yolu ilə razılaşdırıla bilər.

## 7. Qüvvədə qalma müddəti, dəyişikliklər, xitam verilməsi

1. Bu Saziş imzalandığı günündən qüvvəyə minir və növbəti 4 il ərzində qüvvədədir. İstənilən Tərəf digərini Sazişə xitam vermək istəyi ilə bağlı xəbərdar edə bilər və bu haldaistənilən mövcud proqram müvafiq qayda ilə geri götürülür. Xəbərdarlıq Sazişin qüvvədən düşməsinə ən azı 6 ay

qalmış edilməlidir. Tərəflərin heç biri xəbərdarlıq ilə müraciət etməzsə Saziş növbəti 4 illik müddətə uzadıla bilər.

2.Bu Saziş beynəlxalq müqavilə statusuna malik deyil və beynəlxalq hüquq ilə tənzimlənən heç bir hüquq və öhdəliklər yaratmır.

Bu Saziş iki nüsxədə olmaqla ................ 2014 tarixində Bakı şəhərində imzalanmışdır.

Azərbaycan Milli Elmlər

Akademiyası tərəfindən

Prezident

Akad. Akif Əlizadə

06.06.14

Moldova Elmlər

Akademiyası tərəfindən

Prezident

Akad. Georgi Duka